

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 245 (21.655)

23 dekabr 2016-cı il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Dekabrın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkdilli Ölkələrin Parlament Assambleyasının (TürkPA) Beynəlxalq Katibliyinin mənzil-qərargahının rəsmi açılışı mərasimində iştirak etmək üçün ölkəmizə səfərə gələn Türkiyə Böyük Millət Məclisinin sədri İsmayıl Qəhrəmanı, Qazaxıstan Parlamenti Məclisinin sədri Nurlan Niqmatulini və Qırğızıstan Joqorku Keneşinin sədri Çınıbay Dursunbekovu qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 22-də BP şirkətinin prezidenti Robert Dadlini qəbul edib.

Görüşdə Azərbaycan ilə BP şirkəti arasında uzun illər uğurlu və qarşılıqlı faydalı əməkdaşlığın həyata keçirildiyi vurğulanıb. Görüş zamanı 2024-cü ildən sonra “Azəri-Çıraq-Günəşli” yatağının işlənilməsi ilə bağlı məsələlər müzakirə edilib.

Görüşdə, həmçinin, “Cənub” qaz dəhlizinin yaradılması və “Şahdəniz-2” layihəsi ilə bağlı aparılan işlərdə əldə edilmiş irəliləyiş, BP şirkətinin “Şəfəq-Asiman” blokunda, Abşeron yarımadasının dayazsulu hissəsində həyata keçirdiyi işlər və BP-nin Azərbaycanın neft-qaz sənayesinin inkişafında iştirakının perspektivləri ilə bağlı məsələlər ətrafında müzakirələr aparılıb.



## “Dünya azərbaycanlılarının həmrəyliyi – ideyadan gerçəkliyə” mövzusunda elmi-praktik konfrans keçirilmişdir

***Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatında Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə “Dünya azərbaycanlılarının həmrəyliyi – ideyadan gerçəkliyə” mövzusunda elmi-praktik konfrans keçirilmişdir.***

Mövzu ilə bağlı çıxış edən Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Sevda Quliyeva bildirmişdir ki, XX əsrdə ikinci dəfə müstəqillik əldə edən Azərbaycanın qarşısında duran başlıca vəzifələrdən biri dünya azərbaycanlılarının vahid bir ideya ətrafında birləşməsi idi. Bu ideyanın müəllifi ulu öndərimiz Heydər Əliyev olmuşdur. Belə ki, 1990-1993-cü illərdə Naxçıvandan başlanan Heydər Əliyev xilaskarlıq missiyasının əsas qayəsini məhz xalqımızın vahid ideologiya ətrafında birləşməsi təşkil edirdi. 1991-ci il dekabrın 16-da ümummilli liderimizin rəhbərliyi ilə keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında “31 Dekabr Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü haqqında” Qərar qəbul olunmuşdur. Həmin ilin son günü həmrəylik bayramı ilk dəfə muxtar respublikada kütləvi tədbirlərlə qeyd edilmişdir. Dünya azərbaycanlılarının birlik və həmrəyliyi istiqamətində atılmış ilk addım olan bu bayram sonrakı dövrlərdə bu sahədə həyata keçirilən tədbirlərin daha da kütləvi xarakter almasında, xalqımızın vahid ideologiya ətrafında birləşməsində mühüm rol oynamışdır.



Vurğulanmışdır ki, ümummilli lider Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra bütün sahələrdə olduğu kimi, milli birliyə nail olunması istiqamətində də ardıcıl tədbirlər həyata keçirilmiş, Azərbaycançılıq anlayışı milli ideologiyaya çevrilmiş, xaricdə yaşayan həmvətənlərimizin Azərbaycanla əlaqələri genişləndirilmiş, milli diaspor təşkilatlarının yaradılmasına başlanılmışdır.

Konfransda AMEA Naxçıvan Bölməsinin əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru, dosent Ramiz Qasımov “Dünya azərbaycanlılarının həmrəyliyi və həyata keçirilən təşkilati işlər”, Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatı Qıvraq qəsəbə ərazi ilk təşkilatının sədri Yunis Ələkbərov “Azərbaycan diasporası, lobbiçiliyi və müstəqil Azərbaycan”, YAP Kəngərli Rayon Təşkilatı Gənclər Birliyinin sədri Süleyman Süleymanov “Dünya azərbaycanlılarının həmrəyliyinin güclənməsində qurultayların rolu”, Böyükdüz kənd ərazi ilk partiya təşkilatının sədri Vaqif Babayev “Vətənçilik hissi və dünya azərbaycanlılarının həmrəyliyi” mövzularında çıxış etmişlər.

Çıxışlarda bildirilmişdir ki, ulu öndər Heydər Əliyev dünya azərbaycanlılarının qarşısında duran vəzifələri dəqiq və aydın müəyyənləşdirmişdir. Dünya azərbaycanlıları, ilk növbədə, öz milli kimliklərini dərk və hifz etməli, Azərbaycanın dilini, mədəniyyətini, mütərəqqi adət-ənənələrini, tarixini yaşatmalı, inkişaf etdirməlidirlər. Azərbaycan dövləti də Vətənimizin get-gedə artan maddi və mənəvi potensialından, siyasi nüfuzundan bütün dünya azərbaycanlılarının bəhrələnməsinə şərait yaradır. Bu vəzifələrin uğurla icrasını təmin etmək üçün ulu öndər, ilk növbədə, Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin (2008-ci ildə Diasporla İş üzrə Dövlət Komitəsi adlandırılıb) yaradılması haqqında fərman imzalamış, 2001-ci ilin noyabrında isə Dünya Azərbaycanlılarının Birinci Qurultayı keçirilmişdir. Bu tədbir xarici ölkələrdə yaşayan soydaşlarımızın təşkilatlanması, ümummilli ideyalar ətrafında birləşməsi və təcavüzkar düşmənə qarşı mübarizəsinin təşkili baxımından böyük hadisə idi. Məhz bundan sonra dünya ölkələrində saxtakar erməni təbliğatına sarsıdıcı zərbələr endirilməyə başlanmışdır.

Qeyd edilmişdir ki, ümummilli liderin Azərbaycan diasporu ilə bağlı ideyalarının həyata keçirilməsi istiqamətində bu gün ardıcıl iş görülür. Bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyev ulu öndərin yolunu uğurla davam etdirərək ardıcıl və qətiyyətli addımlar atır. Dövlət başçısının təşəbbüsü ilə 2006-cı ilin martında Dünya Azərbaycanlılarının İkinci Qurultayı keçirilmişdir. Bu tədbirdə Prezident İlham Əliyev təkcə dünya azərbaycanlılarının birləşdirilməsi ilə kifayətlənməməyi, Azərbaycan və türk diasporlarının birləşərək amansız və məkrli düşmənə qarşı vahid cəbhədə mübarizə aparmasını tövsiyə etmişdir. 2008-ci il dekabrın 19-da Bakıda Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının iclasında Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyası qəbul edilmişdir. Bu dövrdən etibarən dövlətimizin diaspor siyasəti xaricdə yaşayan soydaşlarımızın daha da mütəşəkkil təşkilatlanması nəticəsində yeni mərhələyə qədəm qoymuş, onların doğma Vətənə olan bağlılıqlarını artırmışdır. 2011-ci ildə dünya azərbaycanlılarının III, 2016-cı ildə isə IV qurultayı keçirilmişdir.

Diqqətə çatdırılmışdır ki, bu istiqamətdə həyata keçirilən tədbirlərin ardıcıl xarakter almasının nəticəsində bu gün ölkəmizi xaricdə 400-dən çox diaspor təşkilatı təmsil edir. 2012-ci ilin mart ayında yaradılmış Dünya Azərbaycanlı Gənclər Birliyi də dünya azərbaycanlılarının həmrəyliyi işinə öz töhfələrini verməkdədir. Rusiyanın Moskva, Amerika Birləşmiş Ştatlarının Hyuston, Fransanın Paris və Türkiyənin Kocaeli şəhərlərində artıq fəaliyyətə başlamış Azərbaycan Mədəniyyət mərkəzləri zəngin mədəni irsimizin təbliği ilə yanaşı, diasporumuzun imkanlarını da xeyli genişləndirməkdədirlər.

## Nağdsız ödənişlərin həcmi artır

## Bu ödənişlərə üstünlük verənlər mükafatlandırılıblar

***Nağdsız əməliyyatların genişləndirilməsi tədbirləri çərçivəsində Naxçıvan Muxtar Respublikasının Vergilər Nazirliyi tərəfindən 2014-cü ildən başlayaraq həmin əməliyyatların həcminin artırılması məqsədilə hər 6 ayda bir dəfə “Nağdsız ödəyin, hədiyyə qazanın!” adlı həvəsləndirici tədbir keçirilir, nağdsız ödənişlərə üstünlük verənlər qiymətli hədiyyələrlə mükafatlandırılırlar. Həmin il ərzində elektron ödəniş vasitələrindən istifadə edərək ödəniş aparan vətəndaşların ödədikləri məbləğə müvafiq olaraq 223 nəfərə 20 min, 2015-ci ildə 398 nəfərə 20 min, 2016-cı ilin birinci yarımili ərzində 221 nəfərə 15 min manat dəyərində hədiyyələr verilib. İlin ikinci yarısı üçün muxtar respublika üzrə 214 nəfər hədiyyə qazanıb.***

Bu barədə ötən gün Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi və Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin təşkilatçılığı ilə nazirlikdə keçirilən “Nağdsız ödəyin, hədiyyə qazanın!” adlı həvəsləndirici tədbirin altıncı tirajında vergilər nazirinin müavini Nurlan Əliyev geniş məlumat verib və nağdsız ödənişlərin aparılması sahəsində görülən işlərdən danışıb. Qeyd olunub ki, “2016-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında müasir elektron ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram”da Vergilər Nazirliyinə nağdsız ödənişlərin həcminin artırılması məqsədilə kart sahibləri arasında həvəsləndirici tədbirlərin keçirilməsi tapşırılıb.

Görülmüş tədbirlərin nəticəsində muxtar respublika üzrə cari ilin 11 ayı ərzində nağdsız ödənişlərin həcmi 25 milyon 96 min manata çatdırılıb. Təqdirəlayiq haldır ki, 2016-cı ilin noyabr ayında nağdsız ödənişlərin həcminin 80 faizi muxtar respublikamızın rayonlarının payına düşüb.

Bildirilib ki, seçim zamanı obyektivliyi təmin etmək məqsədilə bir neçə kriteriyaya diqqət yetirilib. Belə ki, yuxarı məbləğdə əməliyyat aparılmasından əlavə, əsas göstərici kimi say etibarilə POS-terminallardan daha çox istifadə edən vətəndaşlara üstünlük verilib. Əminliklə demək olar ki, belə tədbirlər əhalidə POS-terminallardan istifadəyə olan marağı daha da artıracaq, nağdsız hesablaşmaların artırılmasına təkan verəcək.

Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin sədr müavini Elvin Axundov nağdsız ödənişlərin üstünlükləri və bu sahədə bank orqanlarının apardıqları stimullaşdırıcı tədbirlər barədə məlumat verib. Qeyd olunub ki, əhalinin nağdsız ödənişlərə çıxış imkanlarının artırılması məqsədilə Naxçıvan şəhərində və muxtar respublikamızın rayonlarında real sektorun bütün sahələrində POS-terminalların quraşdırılması davam etdirilib, 1 dekabr 2016-cı il tarixə onların sayı 552-si Naxçıvan şəhəri, 639-u isə rayon və kənd mərkəzlərində olmaqla, 1191 ədədə çatdırılıb.



Nağdsız ödəniş infrastrukturunun tərkib hissələri olan bankomat və ödəniş kartlarının sayı da artıb. Belə ki, 1 dekabr 2016-cı il tarixə bankomatların sayı 56-sı Naxçıvan şəhərində, 43-ü isə rayon və kənd mərkəzlərində olmaqla, 99 ədəd təşkil edib. Ödəniş kartlarının sayı isə muxtar respublika üzrə 241 min 41 ədədə çatdırılıb ki, bu da muxtar respublika sakinlərinin hər iki nəfərdən birinin ödəniş kartı ilə təmin edilməsi deməkdir.

Vurğulanıb ki, infrastruktur imkanlarının genişlənməsi nağdsız ödəniş həcminin artımına da öz müsbət təsirini göstərib. Əgər 2015-ci ilin ilk 11 ayı ərzində muxtar respublika üzrə aparılmış nağdsız əməliyyatların həcmi 16 milyon 639 min manat təşkil edirdisə, 2016-cı ilin 11 ayı ərzində bu rəqəm 8 milyon 457 min manat artaraq 25 milyon 96 min manat olub ki, bu da ötən illə müqayisədə 51 faiz artım deməkdir.

Cari ilin yanvar-noyabr ayları ərzində muxtar respublika sakinləri tərəfindən aparılmış nağdsız ödənişlərin 9 milyon 120 min manatı POS-terminallar üzərindən, 15 milyon 976 min manatı isə internet və digər ödəniş vasitələri üzərindən həyata keçirilib. Aparılmış nağdsız əməliyyatların 3 milyon 82 min manatı isə kommunal ödəniş məntəqələrində quraşdırılmış POS-terminalların payına düşüb.

Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin şöbə rəisi Rəşad Əliyev “Nağdsız ödəyin, hədiyyə qazanın!” adlı həvəsləndirici tədbirin altıncı tirajında hədiyyə qazanmış şəxslər və hədiyyələrin müəyyən edilməsi haqqında məlumat verib. Bildirib ki, vergi və bank orqanları əməkdaşlarının iştirakı ilə yaradılmış komissiya tərəfindən 1 iyul 2016-cı il tarixdən 1 dekabr 2016-cı il tarixədək, yəni 5 ay ərzində bank orqanlarından nağdsız ödəniş aparan şəxslər barədə müvafiq məlumatlar alınıb, muxtar respublikamızın bütün şəhər və rayonlarını əhatə etməklə 214 şəxs müəyyən olunub. Məlumat verilib ki, birinci yer üzrə 400 manatdan 601 manatadək nağdsız əməliyyat aparan şəxslər üçün hədiyyələrin dəyəri 40-65 manat arasında müəyyən edilib. Həmin hədiyyələr muxtar respublika üzrə 122 şəxsə veriləcək. İkinci yer üzrə 601 manatdan 801 manatadək nağdsız əməliyyat aparan şəxslər üçün hədiyyələrin dəyəri 70-90 manat arasındadır. Bu dəyərdə hədiyyəni muxtar respublika üzrə 45 şəxs alacaq. Üçüncü yer üzrə 801 manatdan çox nağdsız əməliyyat aparan şəxslər üçün hədiyyələrin dəyəri 90-120 manat arasında müəyyən edilib ki, bu meyarla muxtar respublika üzrə 47 şəxs hədiyyələrə sahib olacaq.

Sonra Naxçıvan şəhər sakini olan 37 nəfərə müxtəlif hədiyyələr təqdim edilib.

Məlumat üçün bildirək ki, həmin gün Kəngərli rayonunda 21, Şərur rayonunda 34, Sədərək rayonunda 17 nəfərə hədiyyələr təqdim olunub. Bu gün Babək rayonunda 25, Culfa rayonunda 32, Ordubad rayonunda 29, Şahbuz rayonunda 19 nəfərə hədiyyələr veriləcək.

**Xəbərlər şöbəsi**

# Yeni dövr yeni vəziyyət, yeni yanaşmalar tələb edir

***Dünyada idarə olunan iqtisadi böhranın tüğyan etdiyi, neft istehsalı üzrə ixtisaslaşmış ölkələrin uzun illər nefti idxal etmiş ölkələr tərəfindən ciddi sınağa çəkildiyi bir dönəm çətinlikləri ilə yanaşı, həm də bir sıra müsbət tərəfləri ilə xarakterizə edilə bilər. Belə ki, böhran dövrünün şərtləri daxilində istehsalçılar yeni mexanizmləri düşünüb tapmaq məcburiyyətindədirlər. Məhz belə model və mexanizmləri tapan və bu mexanizmləri uğurla gerçəkləşdirən iqtisadi subyektlər postböhran dövrünün (böhrandan sonrakı dövrün) yeni iqtisadi qüdrətləri roluna sahiblənə biləcəklər. Deməli, böhran həm də insanları daha dərindən və məntiqli düşünməyə, əldə olan resurslardan qənaətlə, məqsədyönlü və səmərəli istifadə etməyə məcbur edəcəkdir. Bu da nəinki ayrı-ayrı ölkələrin, ümumilikdə, dünyanın gələcəyi üçün çox vacibdir.***



Naxçıvanın isə hər hansı çətin iqtisadi şəraitə uyğunlaşması üçün strateji işlər son 20 il ərzində reallaşdırılıb. Lazımi infrastruktur yaradılıb, yerli istehsal stimullaşdırılıb, mövcud iqtisadi resurslardan istifadə imkanları və hansı sahələrin prioritet ola biləcəyi ilə bağlı tövsiyələr dəfələrlə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun çıxışlarında öz əksini tapıb. Düşünürük ki, bugünkü şəraitdə bu istiqamətlərin sahibkarlara xatırladılmasına ehtiyac var.

İqtisadi təhlükəsizliyin təmin olunması üçün, ilk növbədə, yerli istehsalın stimullaşdırılması zəruri hesab edilən Naxçıvanda hələ illər öncə "kəndlini torpaqdan ayırmaq olmaz" prinsipi rəhbər tutularaq kəndlərdə müxtəlif işlər həyata keçirilib. Hətta ucqar kənd məktəblərinin belə, hər cür resurs və avadanlıqlarla təmin edilməsi, müasir informasiya texnologiyalarından istifadə imkanlarının artırılması məqsədilə rabitə xidmətinin yüksəldilməsi, kənd mərkəzlərində müxtəlif inzibati strukturların cəmləşdirilməsi və sair kimi addımlar məhz kəndliyə vaxtının çoxunu kənddə keçirə bilmək imkanının yaradılması üçün idi. Heç də təsadüfi deyildi ki, hələ böhranın "addım səslərinin" eşidilmədiyi vaxtlarda, 2014-cü ildə qarşıdan gələn 2015-ci il Naxçıvan Muxtar Respublikasında "Kənd təsərrüfatı ili" elan edilmişdi.

Ötən illərdə muxtar respublikada istehsalı mövcud olan məhsulların idxalının məhdudlaşdırılması tədbirləri də yerli istehsalı stimullaşdırmaq üçün atılmış addımlardan idi. Məsələn, pulumuzun bol, işləmək həvəsimizin isə az olduğu vaxtlarda kəndlinin kartofu becərdiyi mövsümlərdə muxtar respublikaya bu məhsulun gətirilməsinin məhdudlaşdırılması çoxumuzun, yumşaq dillə desək, "xətrinə dəyirdi". Amma bu gün bizə aydın olur ki, böhran dönəmində məhsulların qiymətini dollarla ekvivalentləşdirən xarici ixracatçılar "xətir-hörmət" məsələsinə baxmır və bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq hər kəs daha çox qazanmaq istəyir. Yadımdadır, Naxçıvanda uşaq bezi istehsalının stimullaşdırılması üçün sahibkarlara kreditlər ayrılanda bir tanışımız "neyniyirik axı…, xarici malı qoyub Naxçıvan istehsalını alan kimdir?" demişdi. Amma indi Naxçıvanda istehsal olunan bu məhsulun qiyməti ilə oxşar xarici məhsulların qiymətləri arasında ən azı 50 faiz fərq var. Hətta bu yaxınlarda qardaş Türkiyədən gəlmiş qonaqlarımızdan biri geriyə qayıdarkən çamadanının birini məhz "Pambıq" məhsulu ilə doldurmuşdu…

Təbii ki, böhran dövründə də yerli istehsalın stimullaşdırılması davam edəcək və bacarığına güvənən hər bir şəxs azad sahibkarlığa yaradılan şəraitdən istifadə edə bilər.

İqtisadiyyatın kənd təsərrüfatı və sənaye kimi istiqamətlərinin inkişafı ilə yanaşı, muxtar respublikanın mövcud turizm resursları da bu istiqamətin inkişafı üçün geniş imkanlar açır. Dövlət turizmin inkişafı üçün, demək olar ki, hər şeyi edib. Tarixi abidələr bərpa edilib, yollar çəkilib, nəqliyyat infrastrukturu formalaşdırılıb, müasir otellər istifadəyə verilib. Muxtar respublikanın turizm imkanlarının tanıdılması üçün bir sıra informasiya resursları yaradılıb. İndi bacarıqlı sahibkarların öhdəsinə düşən məsələ turistlərə individual – fərdi yanaşmanı tətbiq etməklə Naxçıvana turistlər gətirməkdir. Bunun üçün isə ciddi imicə malik olan turizm şirkətlərinə ehtiyac duyulur ki, bu istiqamət də sahibkarlar üçün cəlbedici ola bilər. Təkcə 2016-cı ilin yanvar-noyabr ayları ərzində muxtar respublikaya 368 min 845 nəfər turistin gəldiyini nəzərə alsaq və bu rəqəmi turizm şirkətlərinin fəallığı nəticəsində iki-üç dəfə artırmağın mümkün olduğunu göz önünə gətirsək, bu sahənin əhəmiyyətliliyi üzə çıxar.

İnformasiya xidmətləri və beyin məhsullarının satışı sahəsində də bir sıra münbit sahələr vardır ki, sahibkarlar bu sahələrdə fəaliyyət göstərməklə həm iqtisadiyyatımıza, həm də özlərinə xeyir verə bilərlər. Məsələn, uzun illər ərzində aparılmış müxtəlif elmi tədqiqatlar nəticəsində elmi qurumlarda bir sıra dərman bitkiləri, o bitkilərdən müalicəvi yağların alınması üsulları öyrənilsə də, bir sıra məhsulların hətta patentləri alınsa da, təəssüf ki, bunun geniş istehsalata tətbiqi üçün heç bir sahibkar təşəbbüsünə rast gəlinməyib. Halbuki bu gün əczaçılıq sənayesi dünyada ən gəlirli sahələrdən biri hesab edilir və yaxın qonşu ölkələr belə, bu sahədən ciddi gəlir götürməkdədirlər.

İnformasiya xidmətləri dedikdə isə biz təkcə internet və mobil rabitə xidmətlərini nəzərdə tutmuruq. Məlumdur ki, artıq Naxçıvan Muxtar Respublikasında bu istiqamətdə nəhəng işlər görülüb və muxtar respublikanın mobil rabitə operatoru olan "Naxtel" kifayət qədər iddialı şəkildə ölkənin mobil rabitə bazarına daxil olub. Lakin biz hələ də müxtəlif internet saytlarının yaradılması, proqramlaşdırma, yaradılan proqramların satılması kimi kifayət qədər gəlirli hesab edilə biləcək bir istiqamətdə xidmət fəaliyyəti ilə çıxış edən sahibkarlıq subyektlərinə rast gəlmirik. Halbuki bu istiqaməti inkişaf etdirməklə nəinki yerli maliyyə resurslarının kənara (paytaxta və yaxın xarici ölkələrə) axmasının qarşısını almaq, eləcə də əlavə maliyyə vəsaiti cəlb etmək mümkündür.

Naxçıvan Muxtar Respublikasında professional tərcümə mərkəzlərinin yaradılması da gəlirli və hələki boşluq olan sahələrdən biri sayıla bilər. Məlumdur ki, müxtəlif kitabların, məqalələrin, təbliğat materiallarının xarici dillərə tərcüməsi ya ayrı-ayrı fərdi şəxslər tərəfindən edilir, ya da genişhəcmli materiallar paytaxt Bakı şəhərində yerləşən tərcümə mərkəzlərinə göndərilərək orada tərcümə olunur. Xarici dillərə ən ucuz tərcümənin bir səhifəsinin ən azı 10 manata edildiyini nəzərə alsaq, illik kənara axan maliyyə vəsaitinin həcmini təsəvvürümüzə gətirə bilərik.

Yeni iqtisadi dövrün tələblərindən ən başlıcası isə məhsulun təkcə daxili bazar tələbatı üçün deyil, həm də ixracat üçün hazırlanmasıdır. Çünki xarici bazarın da tələblərinə uyğun keyfiyyətli məhsul istehsalına çalışmadan və bu məhsulların brendləşməsinə və ixracına nail olmadan ciddi istehsalçı, ciddi şirkət imicini qazanmaq mümkün deyildir.

*Bu məqamda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının ikinci ilinin yekunlarına həsr olunmuş konfransdakı nitqində söylədiyi bu sözləri xatırlatmaq yerinə düşər: "Yeni dövr yeni vəziyyət, yeni yanaşmalar tələb edir. Ona görə də indiki şəraitdə sahibkarlıq daha da genişləndirilməli, sahibkarlara daha yaxşı şərait yaradılmalı, yerli istehsalı sürətləndirmək üçün əlavə tədbirlər görülməlidir".*

**Elnur KƏLBİZADƏ**

# Taxıl əkinlərinin sığortası mühüm məsələdir

***Kənd təsərrüfatında sığortanın mühüm növlərindən biri taxıl əkinlərinin sığortasıdır. Xüsusən payızlıq taxıl əkinlərinə müxtəlif təbiət hadisələri zərər vurduğundan torpaq mülkiyyətçilərinin bu zərərlərə qarşı sığortalanması vacib məsələdir. Əmlakı və məhsulu gözlənilməz hadisələrə qarşı sığorta etdirmək fermer və torpaq mülkiyyətçiləri üçün böyük əhəmiyyət daşıyır.***

Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının mühüm sahələrindən biri taxılçılıqdır. Muxtar respublikada ərzaq təhlükəsizliyinin təmin olunması üçün geniş sahədə taxıl əkinləri aparılır. Taxıl ehtiyatının yaradılmasında torpaq mülkiyyətçilərinin istifadəsində olan əkin sahələrinin məhsulunun qorunması və onun sığortalanması da mühüm əhəmiyyət kəsb edir. Hazırda payızlıq taxıl əkini yekunlaşmışdır. Min hektarlarla sahədə taxıl əkini aparılmışdır. Lakin nəzərə almaq lazımdır ki, muxtar respublikanın sərt iqlim şəraitində payızlıq taxıl əkinlərinin müxtəlif hadisələrdən məhv olması və ya zərər görməsi ehtimalı da vardır. Belə zərərlər əkinlərin cücərti zamanı şaxta və donvurmadan, daha sonra zərərvericilərin təsirindən, dolu yağmasından, yetişmiş məhsulun yanmasından ola bilər. Buna görə də taxıl əkini aparılan sahələrin sığortalanması baş verə biləcək müxtəlif sığorta hadisələri zamanı torpaq mülkiyyətçilərinə dəyən zərərlərdən maddi təminat verir.

Kənd təsərrüfatında sığortanın təşkili və onun fəaliyyətinin stimullaşdırılması dövlətin daim diqqət mərkəzindədir. Bu məqsədlə təbii hadisələrdən kənd təsərrüfatı məhsullarının sığortalanması üçün müvafiq qanunlar və qərarlar qəbul olunmuşdur. Bu qanunlara əsasən, taxıl sahələri yanğın, dolu, sel, daşqın və şaxtavurma kimi gözlənilməz hadisələrdən tam məhv olduqda və ya bir hissəsi məhv olduqda məhsulun sığortalanma dərəcəsi nəzərə alınmaqla dəymiş zərər məbləği dairəsində sığorta ödənişi verilir. Kənd təsərrüfatında sığorta etdirənlərin mənafeləri nəzərə alınaraq Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarına əsasən muxtar respublikamızda taxıl sahələrinin sığortası zamanı sığorta haqlarının 50 faizi dövlət büdcəsinin vəsaiti hesabına ödənilir. Həmçinin kənd təsərrüfatı sığortasının həyata keçirilməsinin qaydalarına uyğun olaraq sığorta olunan kənd təsərrüfatı məhsulunun dəyərinin 5 faiz həcmində sığortahaqqı müəyyən olunur. Bu zaman kənd təsərrüfatı məhsulunun sığorta məbləği sığorta müqavilələrinin bağlandığı ildən əvvəlki dövrün orta məhsuldarlığı nəzərə alınmaqla və rayonun orta göstəricisi əsasında müəyyən edilir.

Kənd təsərrüfatında əmlakın sığortası üzrə sığorta tarifləri sığorta hadisələri nəzərə alınmaqla sığortaçı tərəfindən müəyyən olunur. Əmlakını üç ildən az olmayaraq ardıcıl sığorta etdirmiş, lakin həmin müddətdə sığorta ödənişi almamış sığortalıya sonrakı illər üçün hesablanmış sığortahaqqından dördüncü ildən başlayaraq güzəştlər edilir.

Kənd təsərrüfatı məhsulunun və əmlakın sığortası könüllülük prinsipləri əsasında həyata keçirilir. Bu zaman sığortanın şərtləri və aparılması qaydaları qanunvericiliyə uyğun olaraq sığortaçı ilə sığortalı arasında bağlanan sığorta müqaviləsində müəyyən edilir. Dövlət tərəfindən zəmanət verilən kənd təsərrüfatının sığortası fermerlər və torpaq mülkiyyətçiləri üçün gözlənilməz hadisələrdən dəymiş zərərlərin əvəzinin ödənilməsi üçün yaxşı imkanlar yaradır. Odur ki, hazırda payızlıq taxıl əkinlərinin yekunlaşdığı bir vaxtda torpaq mülkiyyətçiləri öz əkinlərini dövlət sığorta orqanlarında sığorta etdirməklə hazırkı qış aylarında ola biləcək şaxtaların vurduğu zərərlərə qarşı və gələcəkdə dolu, sel, tufan və digər hadisələr nəticəsində dəyə biləcək zərərlərə qarşı sığorta təminatı ala bilərlər.

**Əli CABBAROV**

***Muxtar respublikada ərzaq təhlükəsizliyinin təmin olunmasında, əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsində, emal müəssisələrinin xammalla təchiz edilməsində kənd təsərrüfatı məhsulları istehsalının mühüm əhəmiyyəti vardır. Ona görə də regionda aqrar sektorun inkişafına ciddi önəm verilir, intensiv metodlara və müasir texnologiyalara əsaslanan kənd təsərrüfatı məhsulları istehsalının həcmi ilbəil artır.***

# Soyuducu anbarlar əhalini qış mövsümündə keyfiyyətli meyvə-tərəvəz məhsulları ilə təmin edir

Bu istiqamətdə həyata keçirilən tədbirlərdən biri də tədarük edilən məhsulların saxlanılması üçün beynəlxalq standartlara cavab verən texnologiyalar əsasında soyuducu anbar komplekslərinin tikintisidir. Çünki inşa edilən soyuducu anbarlar kənd təsərrüfatı məhsullarının bazara çıxış müddətinin artırılmasında mühüm rola malikdir.




Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyindən aldığımız məlumata görə, son vaxtlar Sahibkarlığa Kömək Fondunun və sahibkarların özlərinin şəxsi vəsaitləri hesabına soyuducu və digər təyinatlı ərzaq məhsullarının saxlanması üçün anbarların ümumi tutumu 15395 tona çatdırılıb. Dövlət maliyyə dəstəyi ilə yaradılan, bilavasitə kənd təsərrüfatı istehsalçılarının fəaliyyətinin stimullaşdırılması məqsədilə tələbatdan artıq kənd təsərrüfatı məhsullarının tədarükünün həyata keçirilməsi üçün tutumu 6000 ton olan ixtisaslaşdırılmış soyuducu anbar və sahibkarlıq subyektlərinin öz istehsal məhsullarının saxlanması üzrə tutumu 9395 ton olan ixtisaslaşdırılmış soyuducu və digər təyinatlı ərzaq məhsulları üçün anbarlar mövcuddur.

Məlumatda o da vurğulanır ki, 2016-cı ildə əhalinin mövsümi kənd təsərrüfatı məhsullarına olan tələbatının ödənilməsi, qiymətlərin tənzimlənməsi və idxaldan asılılığın azaldılması məqsədilə belə məhsullar soyuducu anbarlara tədarük edilib və keyfiyyəti daim nəzarətdə saxlanılır. 1 iyun 2016-cı il tarixdən 19 dekabr 2016-cı il tarixə soyuducu anbarlara tələbatdan artıq istehsal edilmiş cəmi 4300,55 ton məhsul tədarük olunub. Bunun da 3079,51 tonu kartof, 635,21 tonu soğan, 220,0 tonu ərik, 337,6 tonu alma, 0,13 tonu armud, 0,17 tonu şaftalı, 0,1 tonu üzüm, 13,78 tonu kələm, 14,05 tonu sarımsaq məhsuludur. Tədarük edilmiş meyvə-tərəvəz məhsullarından 1785,87 tonunun satışı həyata keçirilib.

Soyuducu anbarlardan səmərəli istifadə etmək məqsədilə sahibkarlarla qarşılıqlı razılaşma yolu ilə anbarların istehsalçılara icarəyə verilməsi də həyata keçirilir. Hazırda soyuducu anbarlarda icarə olaraq 427,4 ton məhsul saxlanılmaqdadır.

Onu da qeyd edək ki, cari ilin ötən dövrü ərzində soyuducu anbarların yaradılması istiqamətində 1 layihənin maliyyələşdirilməsinə 50 min manat vəsait ayrılıb. Ümumilikdə isə 2000-ci ildən 2016-cı ilin ötən dövrünədək Sahibkarlığa Kömək Fondu tərəfindən 11 layihənin maliyyələşdirilməsinə 4 milyon 297 min 840 manat dövlət maliyyə dəstəyi göstərilib. Bu layihələrin reallaşdırılması yeni iş yerlərinin açılmasına imkan yaradıb.

**Xəbərlər şöbəsi**

# Şərur Rayon Xalq Teatrının yaradılmasının 35 illiyi qeyd olunub





***Dekabrın 22-də Şərur şəhərindəki “Bahar” kinoteatrında Rza Təhmasib adına Şərur Rayon Xalq Teatrının yaradılmasının 35 illiyinə həsr olunmuş tədbir keçirilib. Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova açıb. Bildirilib ki, Naxçıvan Muxtar Respublikasında mədəniyyət və incəsənətin bütün sahələrinə göstərilən diqqət və qayğı mədəni yüksəlişi təmin edib. Bunun nəticəsidir ki, muxtar respublikada fəaliyyət göstərən 3 dövlət teatrı, 5 xalq teatrı, 1 dövlət filarmoniyası, 1 dövlət uşaq filarmoniyası, 28 muzey və 1 rəsm qalereyası, 225 klub və mədəniyyət evi, 234 kitabxana, 27 uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbi regionun mədəni həyatında mühüm rol oynayır.***

Qeyd olunub ki, mədəniyyət və incəsənətimizdən danışarkən sənət tariximizə şərəfli səhifələr yazmış teatrımız daim yada düşür.

Azərbaycan teatrının inkişafı, teatrlarımızın yaradıcılıq axtarışlarının genişləndirilməsi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Teatra, sənət adamlarına böyük diqqət və qayğı göstərən ulu öndərimizin qayğısı ilə ötən əsrin 70-ci illərindən başlayaraq milli teatr sənətimiz yeni inkişaf mərhələsinə qədəm qoyub. Görkəmli dövlət xadimi teatr sənətinə yüksək qiymət verərək deyirdi: ***“Teatr Azərbaycanda mədəniyyətin, xalqımızın milli ruhunun, milli dirçəlişinin inkişafında, ümumiyyətlə, xalqımızın mədəni səviyyəsinin yüksəldilməsində böyük rol oynamışdır”.***

Belə mədəniyyət müəssisələrinə diqqət və qayğı bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən davam etdirilir. 2006-cı ildə qəbul olunmuş “Teatr və teatr fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu, ölkə başçısının “Azərbaycan teatr sənətinin inkişaf etdirilməsi haqqında” 2007-ci il 19 fevral tarixli Sərəncamı, 2009-cu ildə təsdiq edilmiş “Azərbaycan teatrı 2009-2019-cu illərdə Dövlət Proqramı” milli teatrımızın maddi-texniki bazasının möhkəmləndirilməsi, kollektivlərin yaradıcılıq potensialının inkişaf etdirilməsi baxımından mühüm dövlət sənədləridir.

Natəvan Qədimova deyib ki, Naxçıvan Muxtar Respublikasında da teatrların fəaliyyətinə hərtərəfli qayğı göstərilir. Son illər muxtar respublikada teatrların maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilib, teatr binalarının hamısı yenidən qurulub və ya əsaslı təmir olunaraq istifadəyə verilib. Bu gün regionda fəaliyyət göstərən Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı, M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı, Naxçıvan Dövlət Uşaq Teatrı, 5 xalq teatrı, Naxçıvan Dövlət Universitetinin Tələbə Teatr Studiyası tamaşaçıların mənəvi və estetik zövqünün formalaşmasında, asudə vaxtının mənalı təşkilində əhəmiyyətli rol oynayır. Teatr o zaman davamlı inkişaf yolunda olur ki, orada gənc aktyorlar nəsli yetişsin. Muxtar respublikada bu sahədə də mühüm addımlar atılıb, Naxçıvan Dövlət Universitetində Aktyorluq sənəti ixtisası açılıb. Muxtar respublikada ömrünü teatra bağlayanların əməyi dövlətimiz tərəfindən daim yüksək qiymətləndirilir, yaradıcı insanlar Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarına, orden və medallara, Prezident təqaüdü və mükafatlarına layiq görülürlər.

Diqqətə çatdırılıb ki, bu gün yaradılmasının 35 illiyini qeyd etdiyimiz Rza Təhmasib adına Şərur Rayon Xalq Teatrının da muxtar respublikamızda teatr sənətinin inkişafında və təbliğində öz yeri vardır. Teatr ötən illər ərzində hazırladığı müxtəlif məzmunlu tamaşalarla rayon sakinlərinin estetik zövqünün formalaşmasında, gənc nəslin milli dəyərlər ruhunda tərbiyəsində, insanların asudə vaxtlarının mənalı və səmərəli keçirilməsində əhəmiyyətli rol oynayıb.

Nazir teatrın 35 illiyi münasibətilə kollektivin bütün üzvlərini təbrik edib, onlara yaradıcılıq uğurları arzulayıb, teatrın bir qrup əməkdaşına diplomlar təqdim olunub.

Şərur Rayon Xalq Teatrının rejissoru Nəsimi Məmmədzadə “Şərur Xalq Teatrının keçdiyi yaradıcılıq yolu” mövzusundakı çıxışında bildirib ki, 1938-ci ildə SSRİ Ali Sovetinə deputatlığa namizədliyini bu rayondan irəli sürmüş dahi bəstəkar Üzeyir Hacıbəyovun seçiciləri ilə görüşündə bir qrup ziyalı “Arşın mal alan” musiqili komediyasından bir səhnə hazırlayaraq təqdim etmişdi. Tədbirdən sonra görkəmli sənətkardan ilk xeyir-dualarını alan həvəskarlar tərəfindən dram dərnəyi yaradılır. Dram dərnəyi zamanla öz ətrafına yaradıcı insanlar toplayıb, repertuarına bir çox tamaşalar daxil edib. Bu sırada Səməd Vurğunun “Vaqif”, Cəfər Cabbarlının “Solğun çiçəklər”, Süleyman Sani Axundovun “Tamahkar”, Altay Məmmədovun “Yadındamı”, Qaray Fəzlinin “Yeddi ulduzlu səma” əsərinin motivləri əsasında “Gənclik bir də qayıtmır”, Qəni Hüseynovun “Nicat” və başqa tamaşaları qeyd etmək olar. 1981-ci ildə çox böyük uğurla Qəni Hüseynovun “Nicat” əsərini tamaşaya hazırlayan dram dərnəyinə Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi böyük pedaqoq, rejissor R.Təhmasibin adını daşımaqla xalq teatrı statusu verib. Öz yaradıcılıq uğurlarına görə xalq teatrı statusu alan kollektiv bu qayğıdan ruhlanaraq repertuarını daha da zənginləşdirib. Bu baxımdan rejissor Qvami Baxşəliyevin quruluşunda Malik Muxtarın “Zəngulənin zəngləri”, Cəlil Məmmədquluzadənin “Kişmiş oyunu”, rejissor Pərvanə Cabbarovanın quruluşunda Vaqif Əsrarın “Şiraslanın arvadı”, rejissor Sabir Cəfərovun quruluşunda “Toy kimindir?” musiqili komediyalarını qeyd etmək olar.

Ötən dövr ərzində teatrda istedadlı aktyor və rejissor nəsli yetişib. Onlar teatrın inkişafında öz səy və bacarıqlarını əsirgəməyiblər, müxtəlif illərdə Anton Pavloviç Çexovun “Ayı”, Mirzə Fətəli Axundovun “Hekayəti-Müsyö Jordan və Dərviş Məstəli şah”, Süleyman Rüstəmin “Çimnaz xanım yuxudadır”, Üzeyir Hacıbəyovun “Quyruqlu ulduz”, Qeybulla Rəsulovun “Rəhmə gəl, mələyim”, Nəcəf bəy Vəzirovun “Dələduz”, Mirzə Ələkbər Sabirin 150 illik yubileyi münasibətilə “Dindirir əsr bizi”, Cahangir Aslanoğlunun “Qısqanc ər”, Əbdürrəhim bəy Haqverdiyevin “Ac həriflər” əsərlərinin uğurlu səhnə həllində istedadlarını nümayiş etdiriblər.

Vurğulanıb ki, 2006-cı ildə özünün 25 illiyini qeyd edən teatr Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fəxri fərmanı ilə təltif olunub. 2008-ci ildə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin keçirdiyi xalq teatrlarının birinci ümumrespublika baxış-müsabiqəsində iştirak edərək 54 teatr kollektivi arasında ikinci dərəcəli diplomla təltif olunub. 2015-ci ildə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin keçirdiyi xalq teatrlarının baxış-müsabiqəsində teatr Cəlil Məmmədquluzadənin “Ölülər” əsərinin motivləri əsasında hazırlanmış “Yuxu” tamaşasına görə müsabiqənin ikinci dərəcəli diplomuna layiq görülüb. Kollektivin üzvlərinin əməyi dövlətimiz tərəfindən fəxri adlarla və dövlət mükafatları ilə qiymətləndirilib.

Tədbirin bədii hissəsində xalq teatrının müxtəlif illərdə hazırladığı tamaşalardan parçalar göstərilib və teatrın tarixi ilə bağlı videoçarx nümayiş etdirilib.

Tədbirin sonunda Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Kimya Babayeva və Nəsimi Məmmədzadənin xalq folkloru əsasında səhnələşdirdiyi “Toy” tamaşasının nümayişi olub.

Yubiley tədbirindən sonra kollektivlə görüşən Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova və Şərur Rayon İcra Hakimiyyətinin başçısı İbrahim Məmmədov teatrın üzvlərini təbrik edib və onlara yaradıcılıq uğurları arzulayıblar.

**Əli RZAYEV**

***Babək Rayon Təhsil Şöbəsi tərəfindən bu il noyabrın 27-də rayonun ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdləri arasında keçirilən test-sınaq imtahanında yüksək göstəricilər əldə etmiş şagirdlərin mükafatlandırılması mərasimi keçirilib.***

## Test-sınaq imtahanlarında yüksək nəticə göstərənlər mükafatlandırılıblar

Tədbirdə rayon Təhsil Şöbəsinin müdiri Ovni Muradov çıxış edərək muxtar respublikada, eləcə də Babək rayonunda təhsilin inkişafı istiqamətində görülən işlərdən danışaraq bildirib ki, ali məktəblərə qəbul imtahanlarında abituriyentlərin yüksək nəticə göstərməsində test-sınaq imtahanlarının böyük rolu vardır. Ona görə də rayonun təhsil müəssisələrində bu imtahanların keçirilməsinə ciddi diqqət yetirilir, şəffaflıq təmin edilir.

Sonra şöbənin metodkabinetinin müdiri Əbdüləli Mirzəyev test-sınaq imtahanlarının nəticələri haqda məlumat verib. O bildirib ki, imtahanlarda şagirdlərə öz bilik və bacarıqlarını nümayiş etdirmək üçün hərtərəfli şərait yaradılıb. IX-XI sinif şagirdləri arasında keçirilən test-sınaq imtahanında 38 şagird 400-700, həmçinin 16 şagird 500-700 intervalında bal toplayıb. Ötən illə müqayisədə bir daha görmək olar ki, nəticələr ilbəil yaxşılaşmaqdadır.

Sonra test-sınaq imtahanında yüksək nəticə göstərən şagirdlərə hədiyyələr və diplomlar təqdim edilib.

Qeyd edək ki, muxtar respublikamızda, eləcə də Babək rayonunda yaradılmış yüksək təhsil mühiti ilbəil uğurlu nəticələrin əldə olunmasına imkan verir. Bu nəticələrin daha da yüksəldilməsi, şagirdlərin elmlərə marağının artırılması, onlar arasında sağlam rəqabətin formalaşdırılması məqsədilə ilboyu test-sınaq imtahanları təşkil edilir və müəyyən olunan nöqsanların aradan qaldırılması üçün nəticələrin müzakirəsi təşkil olunur. Sınaq imtahanları şagirdlər üçün böyük əhəmiyyət kəsb edir. Belə ki, bu imtahanlar şagirdlərə proqram materialları üzrə öz bilik səviyyəsini yoxlamağa imkan verir, onların testlərlə işləmək vərdişlərini artırır. Bundan başqa, bu qəbildən imtahanlar şagirdlərin test imtahanlarının texnologiyası ilə tanış olmalarına imkan yaradır, ayrılmış vaxtdan səmərəli istifadə etmək bacarıqlarını inkişaf etdirir, imtahana psixoloji cəhətdən hazırlaşmalarına kömək edir.

**Xəbərlər şöbəsi**

# Naxçıvan Dövlət Universiteti növbəti semestrə uğurla yekun vurub

***Naxçıvan Dövlət Universitetində 2016-2017-ci tədris ilinin birinci semestrinin yekunlarına həsr olunmuş tədbir keçirilib.***

Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov tədbiri giriş sözü ilə açaraq universitetin sona çatmaqda olan semestr ərzində tədris, beynəlxalq əlaqələr, tələbə mübadiləsi, maddi-texniki bazanın gücləndirilməsi, idman, incəsənət sahəsində qazandığı çoxsaylı uğurlardan danışıb.

Ali təhsil müəssisəsinin İqtisadiyyat kafedrasının müəllimi İsmayıl Bağırov Azərbaycan Dövlət İqtisad Universitetində Azərbaycan Respublikasının Vergilər Nazirliyi ilə birgə təşkil edilən “Vergilər” mövzusunda onuncu olimpiadadan danışıb. Bildirib ki, ölkənin 15 ali məktəbinin 300-dək tələbə və magistrantının iştirak etdiyi olimpiadada universitetin bir tələbəsi qələbə qazanıb, digər 2 təmsilçimiz isə III yerə layiq görülüb.



Universitetin Tələbə İdman Klubunun sədri, dosent Məmmədəli Rəhimov tələbələrin fiziki tərbiyə və idman sahəsində qazandığı uğurları tədbir iştirakçılarının diqqətinə çatdırıb, cari tədris ilində I kurs tələbələri arasında idmanın 6 növü üzrə 10 fakültə arasında keçirilən seçmə yarışlardan bəhs edib. Qeyd olunub ki, Naxçıvan Dövlət Universitetinin qızlardan ibarət voleybol komandası Naxçıvan şəhər birinciliyinin qalibi olub. Tələbə idmançılarımız idmanın boks, peyntbol, yüngül atletika növləri üzrə muxtar respublika birinciliyinin qalibi, II və III yerlərin sahibi olublar. Tələbələr Əməkdar idman ustası, SSRİ-nin Əməkdar məşqçisi Abbas Ağalarovun xatirəsinə həsr olunmuş gənclər arasında boks üzrə ənənəvi beynəlxalq turnirdə, Türkiyə Cümhuriyyətinin Ərzurum Atatürk Universitetinin təşkil etdiyi beynəlxalq turnirdə, respublika səviyyəli yarışlarda da universiteti layiqincə təmsil ediblər.

Sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondu və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu tərəfindən keçirilən “Naxçıvan: dünən və bu gün” yaradıcılıq müsabiqəsində üçüncü yerə layiq görülən universitet əməkdaşına, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş “Vergilər” mövzusunda onuncu ümumrespublika olimpiadasının qalibinə və yüksək nəticə göstərmiş iştirakçılarına diplomlar təqdim olunub.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun təşkilatçılığı ilə 10-17 noyabr – Beynəlxalq Tələbə Gənclər Həftəsinə həsr olunmuş Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında yarışların qalibləri – universitetin “Karvan” şən və hazırcavablar komandasının, “Nuh yurdu” intellektual oyununun qalibi “Təbriz” komandasının üzvləri, fakültələrarası elektron bilik yarışının qalibləri və təşkilatçıları da diplomlarla təltif olunublar. Müxtəlif idman növləri üzrə universitetdaxili yarışların, muxtar respublika birinciliklərinin qaliblərinə və yüksək nəticə göstərən iştirakçılara da diplom və fəxri fərmanlar təqdim edilib.

Sonda idmanın 6 növü üzrə I kurslar arasında keçirilən fakültələrarası seçmə yarışların ümumi nəticələrinə xal hesabı ilə liderlik edən fakültələrə, yarışların təşkilində və keçirilməsində xüsusi əməyi olan universitet əməkdaşlarına da diplomlar verilib.

**Mehriban SULTAN**

*Təbiətin özünəməxsus gözəlliklərindən gözünə-könlünə dolduranlar necə də xoşbəxt və bəxtəvərdirlər. İlahi qüdrətdən qələm çəkilmiş təbiətimizin ecazkarlığı bir də ondadır ki, hər guşəsinin öz gözəlliyi var. Məsələn, aranın çəmənzarı, dağın laləzarı adamı bihuş etmirmi? Dörd tərəfini gül-çiçək ətri bürüyürsə, könlün açılmırmı?*

***Duymaq istəyənlər min çiçək ətri,***
***Baharda bir qonaq ola dağlara.***

# Gül ək, ətri gəlsin...

## Gülçülük təsərrüfatının məhsulları xarici bazara çıxarılır





Dağların laləli çağını necə də gözəl təsvir edir şair. Təbiətə vurğunluqdan yaranan misralardır. Xəyalımda bənövşə dəstəsi, nərgizdən hörülmüş bir tac hiss etdim bu qoşmaları radio dalğalarından dinlədikcə. Yamanca yerinə düşmüşdü, gül görüşünə getdiyimiz yolda radiodan bizə gül ətirli poeziya buketindən sovqat tutmuşdular. Dağların nazlı-qəmzəli gözəllərini xatırladan gül-çiçəklərini vəsf edirdi şair:

***Alma çiçəyidi çəmən çiçəyi,***
***Tapıbdı qayada, daşda dibçəyi?***
***Ətir qoxur şehli, zərif ləçəyi,***
***Gözəllikdən gözümə don biçəyim,***
***Ay mənim gözəlim, maralçiçəyim.***

Efirdən dinlədiyimiz təbiət təsvirli, gül ətirli, çiçək libaslı bu şeirlər yolboyu xəyalımızda durna qatarına döndü. Onlar yol açdı bizə, sorağını alıb üz tutduğumuz ünvana doğru. Getdiyimiz ünvanda gül əkilib-becərildiyini eşitmişdik. Düşündük ki, gülçülərin qəlbi də ləçəklər kimi zərif olur, yoxsa?..

Sorağını aldığımız ünvana maraqla gedirdik. Axı gül adı gələndə istər-istəməz insanın əhval-ruhiyyəsi yüksəlir. Bu da sirr deyil ki, qadınlara əlamətdar günlərdə ən gözəl hədiyyə elə gül buketi olur. Nişanlı gənclərin, sevən oğlanın da qıza ən böyük hədiyyəsi gül-çiçək deyilmi? Şübhəsiz, qadın qəlbini, ilk növbədə, fəth edən məhz təbiətin bu ətirli çiçəkləri muxtar respublikamızın dağlarında da çoxdur. Yadımdadır. Yaz açılandan kol dibində bitən boynubükük bənövşə, çəmənləri bəzəyən nərgiz, dağlara yaraşıq verən lalələr, qərənfillər və daha minbir ətir saçan neçə-neçə güllər masaları bəzəyər, otaqlara ətir saçardı. İndi isə güllərin zamanı yoxdur. Payız, qış, yaz və yaxud yay aylarında təzə-tər çiçəklər almaq imkanımız var. Çünki bu gün ölkəmizdə sahibkarlığa göstərilən qayğı güllərə də bahar ömrü bəxş edib. Yaxşı haldır ki, muxtar respublikamızda da gülçülük təsərrüfatı yaradılıb. Babək rayonunun Zeynəddin kəndindən olan Əsəd Abbasovun zəhməti öz bəhrəsini verib. Maşınımız kəndin içindən keçərək abad yollarla Zeynəddinin üst tərəfində olan pay torpaqlarına tərəf buruldu. Ağ göyərçinə bənzər istixananın qarşısında dayandıq. Gənc sahibkarla tanışlıqdan sonra təsərrüfatı gəzdik.

…Çöldə qar soyuğu, içəridə bahar ətirli güllər, çiçəklər. Bir-birinə təzad təbiət lövhələri. Güllərin biri açıb, biri qönçə, digəri təzə pöhrədi. Geniş zolaqlar içərisində üzə gülən, ətrafa xoş rayihə saçan güllərə baxmaqdan doymaq olmur.

Sahibkar deyir ki, gülçülük təsərrüfatı 2014-cü ilin aprel ayında yaradılıb və 4600 kvadratmetr olan sahədə 8 istixanaya 9 növdə, 50 min gül şitili əkilib: qerber, qızılgül, lilya, qladyol, qərənfil, dekorativ yaşıllıqlar və sair.

Yaxın seçilib əkilən bu güllər gözəlliyi ilə yanaşı, məhsuldarlığına görə də əlverişlidir, – deyə soruşduqda bildirir ki, bəli, məhsuldar güllərdir. Qerber güllərini göstərərək deyir ki, əvvəlcə 7-8 gül verir. Amma bir ildən sonra məhsulu azalır. Gərək təzədən yeni şitillər əkilə. Qızılgülü isə kəsdikcə yan tərəfdən başqası çıxır, yəni çoxalır. Odur ki, may ayının əvvəlindən sonunacan müxtəlif növ qərənfillər, qızılgül və qerberin əkini başa çatdırılır. Qladyol, şəppi, astomeniya gülləri 101-ci gün bar verir. Odur ki, bir az gec əkilir. Noyabr ayının axırına güllər dərilib satışa çıxarılır.

Təsərrüfatda daha çox becərilən qırmızı qərənfillərin qarşısında dayanırıq. 26 ildir ki, şəhid qanından rəngini alan, Azərbaycan xalqının müqəddəs gülünə çevrilən qərənfil…

Şübhəsiz, gül becərmək böyük diqqət və nəvaziş tələb edən sahədir. Axı zərif bir sahədir gülçülük. Odur ki, üç qardaşın birgə əməyi sayəsində ərsəyə gələn təsərrüfatda 6-7 nəfər ailə üzvü həvəslə çalışır. Gül şitillərinin haradan gətirildiyini öyrənmək istəyirik. Türkiyədən, Antalya şəhərindən, – deyir Əsəd Abbasov. Və əlavə edir ki, Naxçıvan Muxtar Respublikasının torpaq-iqlim şəraitində gül becərib ərsəyə gətirmək xüsusi təcrübə tələb edir. Havadakı nəmliyi təmin etmək, eləcə də normal istiliyə nail olmaq üçün Türkiyənin gülçülük təsərrüfatlarında lazımi təcrübəyə yiyələnmişik. Odur ki, təsərrüfatda yaradılan qazanxana, havatəmizləyicinin qoyulması, güllərin damcı üsulu ilə suvarılmasının təşkili, temperaturun normada olmasının xüsusi aparatlar vasitəsilə tənzimlənməsi, torpağa edilən qulluq, xəstəliklərə qarşı tədbirlərin diqqətlə aparılması ailə təsərrüfatına məhsul bolluğu bəxş edir.

Torpaq mülkiyyətçisi üst-üstə qalanmış qutuları göstərərək – artıq təzə-təzə satışa başlamışıq, Bakıya göndəririk, – deyir. Sonra təsərrüfata gedən yolun başlanğıcından danışır. Bildirir ki, 12 ildir, gül satışı ilə məşğuluq. Bakı, İran, Türkiyədən gətirib Naxçıvan şəhərində özümüzə məxsus "Al çiçəyim" mağazasında satmışıq. Sonra düşündük ki, Naxçıvanda sahibkarlığa yaradılan geniş şəraitin qarşılığında niyə özümüz gülçülük təsərrüfatı yaratmayaq? İki il öncə yaradılan təsərrüfatı cari ildə Sahibkarlığa Kömək Fondundan 30 min manat kredit götürüb genişləndirməyimiz də məhz bu qayğıdan qaynaqlanıb. İstixanaları birləşdirərək, 1000 kvadratmetr də artıraraq 5600 kvadratmetrə çatdırdıq.

Bəli, 2014-cü ilin yazında "Əgər təsərrüfatdan istədiyimiz nəticəni götürsək, gələcəkdə daha çox gül becərəcəyik" inamı ilə işə başlayan ailə təsərrüfatının birgə əməyi "gül açdı". İndi növbənöv güllər təkcə Naxçıvanda deyil, Bakı şəhərində də özünə yaxşı alıcı qazanıb. Amma onlar daha geniş bazarlara çıxmağı qarşılarına məqsəd qoyublar. Odur ki, bu gün Rusiya Federasiyasının Moskva, Krasnodar şəhərlərində və Ukrayna Respublikasında da Naxçıvan gülləri satışa çıxarılır və əlbəttə, yeni bazarlara hələ yollar gedəcək. Bu barədə inamla danışan Əsəd Abbasov deyir ki, bu gün sahibkarlığa yaradılan geniş imkanların müqabilində yeni gül növləri ilə təsərrüfatı genişləndirəcəklər.

*Bəli, təbiətimizin insan əlinin sığalına bu gün daha çox ehtiyacı var. Axı ona ana deyirik. Anaya qulluq isə əbədidir. Demək, ətrindən doymadığımız gül-çiçək libaslı ana təbiətimizin qorunması, onun gül libasının çoxaldılması bizim övladlıq borcumuzdur. Gənc təsərrüfatçı Əsəd Abbasov kimi. Necə deyərlər, gül ək, ətri gəlsin...*

**Hafizə ƏLİYEVA**

# *"Gələcəyimizi qoruyaq"* adlı tədbir keçirilib



*Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin təşkilatçılığı ilə keçirilən "Gələcəyimizi qoruyaq" adlı tədbirdə Heydər Əliyev adına Hərbi Liseyin kursantları iştirak ediblər.*

Mərkəzin direktoru Namiq Novruzov zərərli vərdişlərdən olan siqaret asılılığı barədə danışaraq bildirib ki, iyirmi birinci əsrin taunu adlandırılan siqaretin səbəb olduğu xəstəliklərdən hər gün dünyada 600 min insan dünyasını dəyişir. Odur ki, bu gün dünyanın bir çox dövlətlərində siqaretə qarşı məhdudiyyətlər qoyulur, onun sağlamlığa vurduğu zərərlər barədə maarifləndirmə tədbirləri aparılır. Erkən yaşlardan başlayan zərərli maddələrin istifadəsinin həm fərdin orqanizminə, həm də bütövlükdə cəmiyyətə vurduğu ziyandan bəhs edən Namiq Novruzov yeniyetmələrin maarifləndirilməsi istiqamətində muxtar respublikamızda həyata keçirilən tədbirlərdən bəhs edib.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin əməkdaşı Rəşad Adıgözəlov uşaqların zərərli vərdişlərdən uzaqlaşdırılması üçün həyata keçirilən tədbirlərdən danışıb. Bildirib ki, yeniyetmə və gənclərin psixologiyasına, sağlamlığına və əxlaqi kamilliyinə mənfi təsir göstərən kompüter oyunlarına, mobil telefonlara aludəçiliyin və ümumiyyətlə, uşaqların həyatına zərərli vərdişlərin qarşısının alınması ən vacib məsələdir. Bunun üçün yetkinlik yaşına çatmayan uşaqlarla müntəzəm olaraq maarifləndirici təbliğat işinin aparılması diqqət mərkəzində saxlanılır. Vurğulanıb ki, muxtar respublikamızda gənclərin asudə vaxtlarının səmərəli təşkili, istedad və qabiliyyətlərinin inkişafı, fiziki sağlamlıqlarının qorunması üçün məktəbdənkənar tərbiyə müəssisələrinin, uşaq musiqi məktəblərinin də üzərinə mühüm vəzifələr düşür.

Daxili İşlər Nazirliyinin əməkdaşı, polis kapitanı Fariz Həsənov baş verən hüquqpozmaların qarşısının alınması üçün aparılan qabaqlayıcı profilaktik tədbirlərin, keçirilən reyd yoxlamalarının əhəmiyyətini vurğulayıb, məktəblilərin qeyri-qanuni əməyə cəlb edilməsinin və həmçinin təhsil prosesindən yayınmalarının qarşısının alınması tədbirlərindən, şagirdlərin və valideynlərin törədilən əmələ görə nəzərdə tutulan inzibati və cinayət məsuliyyətindən bəhs edib.

Sonra siqaretə, alkoqolizmə aludəçiliyin fəsadları barədə slaydlar göstərilib, dərnək üzvlərinin hazırladıqları "Siqaretin verdiyi zərərlər", "Ölümə aparan yol", "İnternetin zərərləri" səhnəcikləri nümayiş etdirilib.

**Xəbərlər şöbəsi**

***Dekabrın 22-də Ərtoğrol Cavid adına Naxçıvan Şəhər Uşaq Musiqi və Bədii Sənətkarlıq Məktəbində Naxçıvan Musiqi Kolleci tələbələrinin konserti olub.***

# Naxçıvan Musiqi Kolleci tələbələrinin konserti olub





Tədbirdən əvvəl aparıcı bildirib ki, Naxçıvan Musiqi Kolleci ümummilli lider Heydər Əliyevin təşəbbüsü və tapşırığı ilə 1974-cü ildə yaradılıb. 1975-1976-cı tədris ilində 4 ixtisas üzrə fəaliyyətə başlayan kollec 1992-ci ilə qədər Naxçıvan Orta İxtisas Musiqi Məktəbi, 1992-ci ildən Naxçıvan Musiqi Texnikumu adlandırılıb. 2005-ci ildən isə Naxçıvan Musiqi Kolleci adı ilə fəaliyyətini davam etdirir. Hazırda kollecdə 10-dan çox ixtisas üzrə kadr hazırlığı aparılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamlarına əsasən, bu təhsil ocağının 30 və 40 illik yubileyləri qeyd olunub. Bu illər ərzində kollecdə milli musiqi alətlərimizin və xalq mahnılarımızın yaşadılması, eləcə də klassik və müasir dünya bəstəkarlarının öyrənilməsi, gənc musiqiçi kadrların yetişdirilməsi sahəsində böyük uğurlar əldə edilib.

Vurğulanıb ki, kollecdə təhsil alan tələbələrdən ibarət musiqi kollektivləri maraqlı konsert proqramları ilə müntəzəm olaraq muxtar respublikada keçirilən tədbirlərdə, el şənliklərində çıxış edir.

Kollecin tələbələrinin ifasında ilk olaraq Fikrət Əmirovun "Min bir gecə" baletindən parçalar səsləndirilib. Tələbələrin təqdim etdikləri Azərbaycan bəstəkarlarından H.Xanməmmədovun "Yaşa könül", N.Rzayevin "Çahargah rapsodiyası", S.Ələsgərovun "Şaloxo", A.Gərayın "Bağçakürd" və başqa musiqi əsərləri maraqla qarşılanıb. Konsertdə Avropa və rus bəstəkarlarının əsərləri də ifa olunub, polyak bəstəkarı F.Şopenin, çex bəstəkarı A.Dvorjakın, rus bəstəkarı A.Rubinşteynin fortepiano və skripka üçün yazdığı əsərlərin ifası alqışlarla qarşılanıb.

**Əli RZAYEV**

### *İtmişdir*

Babək rayonunun Aşağı Buzqov kəndində yaşamış Həsənov Məmməd Hüseyn oğluna məxsus 020 hektar torpaq sahəsinin 19A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə"si itdiyindən etibarsız sayılır.

***

Həsənova Gülay Rövşən qızının adına olan 0200611322 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhərinin Qaraçuq kənd sakini Kazımova Ofelya Məmmədcəfər qızının adına verilmiş 186A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**
Baş redaktor:
TURAL SƏFƏROV

*Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Həsənov
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
Tiraj: 1050. Sifariş № 966